

**DİLRUBA CAMALOVA,**
Qadın Problemləri üzrə
Dövlət komitəsi sədrinin müavini

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTİ İDARƏETMƏ MƏKTƏBİ

*Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq, böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.*

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

XX əsrdə Azərbaycan xalqının ən böyük uğuru müstəqillik əldə etməsidir. Bu gün biz iftixarla deyirik: müstəqil, suveren Azərbaycan Respublikasının vətəndaşıyıq!

Müstəqillik əldə edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoydu. Müstəqil dövlətimizin milli Kontitusiyasını qəbul etdi, qanunvericiliyi, hakimiyyət prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdırdı. Bütün sahələrdə struktur dəyişikliyi və ciddi islahatlar aparıldı.

Azərbaycan Respublikası artıq dünya birliyində öz şərəfli yerini tutub. O, ən nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı, faydalı əməkdaşlıq edir.

Hazırda Azərbaycan 137 ölkə ilə diplomatk əlaqə qurmuşdur. Respublikamızda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Eləcə də Azərbaycanın 21 xarici ölkədə səfirliyi, konsulluğu, daimi nümayənədəliyi vardır.

Azərbaycan əmin-amanlıq şəraitində əsl vətəndaş cəmiyyəti yaradır. Çoxsaylı siyasi partiyalar, ictimai təşkilatlar, fondlar, cəmiyyətlər, qurumlar tam demokratik yolla plüralizm şəraitində dövlət idarəçiliyində, quruculuğunda fəal iştirak edirlər.

Ölkəmizin iqtisadi, siyasi qüdrəti günbəgün möhkəmlənir, Vətənimiz tərəqqi edir, xalqın rifah halı yaxşılaşır.

Bunlar təsadüfi deyil! İndi biz müstəqilliyimizdən, onun qorunmasından, iqtisadi, sosial problemlərin həllindən, milli ideologiyanın formalaşmasından, insanların elmi, mədəni, mənəvi, fiziki cəhətdən kamilləşməsindən danışmaq istərkən, ilk öncə ölkə rəhbəri – hörmətli Prezidentimiz Heydər Əliyevə minnətdar olmalıyıq. Məhz onun müdrik siyasəti, gərgin əməyi sayəsində Azərbaycan işıqlı tərəqqi yoluna çıxmışdır. Əslində Azərbaycan dövlət suverenliyini, iqtisadi müstəqilliyini, xarici iqtisadi əlaqələrini, dünya iqtisadiyyatına inteqrasiya etməsinin əsasını hələ 1970-1985-ci illərdə qoymuşdur. Müstəqilliyin təməli o vaxtlar qoyulmuşdu.



Hazırda biz dövlət idarəçiliyindən söhbət açarkən, bir anlığa XX əsrin 1988-1993-cü illəri gözlərimiz önünə gətirək. Həmin dövr Azərbaycan tarixin də qara ləkə kimi düşüb. Hərci-mərclik, özbaşınalıq baş alıb gedirdi. Dövlət qanunçuluğundan, vətəndaşların Konstitusiya hüquqlarından əsər-əlamət qalmamışdı. Talançılıq, qarətçilik, soyğunçuluq adi hal almışdı.

Xarici düşmənlərimiz yaranmış vəziyyətdən məharətlə öz xeyirlərinə istifadə edirdilər. O vaxt ki, maymaq, korazehin rəhbərimizin siyasi sayıqlamaları, səriştəsizliyi ucbatından Sumqayıt hadisələri, 20 Yanvar faciəsi baş verdi. Torpaqlarımızın 10 faizi işğal olundu. Azərbaycan xalqının ən dəyərli övladları qırğına getdi. Qaçqın və köçkünlər problemi yarandı. Müəssisələr və təsərrüfatlar dağıdıldı. Zəngin sərvətləri ilə keçmiş Sovetlər ittifaqında və xarici ölkələrdə şöhrət qazanmış Azərbaycan dilənçi halına salındı. Üstəlik hərə ətrafına bir silahlı dəstə toplayıb ölkəni parçalayıb dağıdırdı.

Ə.Vəzirovu, A.Mütəllibovu və Ə.Elçibəyi ölkənin, xalqın taleyi yox, məhz kresloda yerlərini bərkitmək düşündürürdü. Dövlətçilikdən, idarəçilikdən, qanunçuluqdan uzaq olan bu gözdənuzaq »rəhbərlər» xalqı Allah ümidinə buraxmışdılar. Hələ üstəlik 1970-1980-ci illərdə əldə etdiyimiz böyük uğurlara da qara ləkə salmaq üçün hər cür iyrənc vasitələrə əl atırdılar. Ə.Vəzirov Moskvanın »Özbəkistan işi»ni Azərbaycanda davam etdirilməsi üçün dəridən-qabıqdan çıxırdı. Moskvanın hüquq-mühafizə orqanlarını bu işə cəlb etməkdən ötrü ən rəzil vasitələrə əl atırdı.

Həmin vatlarda Milli Azadlıq Hərəkatı kimi yaranan AXC ilkin mərhələdə xalqın inamını qazandı. Təəssüf ki, bu hərəkata da təsadüfi, bədxah adamlar yabançı ünsur kimi yol tapdılar. AXC-Müsavat iqtidarı dövründə xalqımızın müsibətli günləri başladı. Əbülfəz Elçibəyin (Əliyevin), İsa Qəmbərovun, Pənah Hüseynovun səriştəsizliyi dövlətçiliyimizə böyük zərbə oldu. Bu gözdəniraq »rəhbərlər» xalqın milli-mənəvi dəyərlərini məhv etdilər. Respublikanı uçuruma yuvarlatdılar. Keçmiş sovet rejimində 70 ildə əldə etdiyimiz az-çox uğurlarımızı da itirdik. Azərbaycanın düşünən beyinləri - tanınmış ziyalılarımız, el ağsaqqalırımız təhqirlərə və təzyiqlərə məruz qaldılar. Bir qisim dözməyib dünyasını dəyişdi, xeyli hissəsi də xarici ölkələrə pənah aparmağa məcbur oldu. **İdarəçilik, dövlət quruculuğu** siyasətindən xəbərsiz olan Bunlar bütün qonşu dövlətləri Azərbaycana düşmən etmişdilər.

Azərbaycan dünyadan təcrid edilmişdi, təklənmişdi.

Vətən xaini F.Hacıyevin cəbhədə törətdiyi cinayətləri, hərb işindən başı çıxmayan R.Qazıyevin müdafiə naziri, cənubda »Subtropik əməliyyatı» keçirən İ.Həmidovun Daxili İşlər naziri, P.Hüseynovun baş nazir kimi Azərbaycan dövlətçiliyinə vurduqları zərbənin sağalmaz yaralarının ağrısı xalqı hələ də göynədir.

Ə.Elçibəyin, İ.Qəmbərovun qeyri-ciddi, səriştəsiz rəhbərliyi dövründə Azərbaycan tam iflasa uğradı. Ölkə idarə olunmurdu. Həmin dövr tariximizə dərəbəylik, talançılıq və quldurluq dövrü kimi yazılıb. Belə bir acınacaqlı şəraitdə Azərbaycanda qruplaşmalar gedirdi. Hərə başına bir dəstə toplayıb, öz »dövlətini» yaradıb ona-buna meydan oxuyurdu. S.Hüseynov Gəncəbasarı vahiməyə salmışdı. Cənubda qondarma TMR yaratmaq xülyası ilə yaşayan əqidəsiz-hoqqabaz Ə.Hümbətov rəzil hərəkətləri ilə xalqımızın birlyinə nifaq salmışdı.

Həmin illərdə **dövlətçilik, idarəçilik** anlayışını dərk etməyən kütbeyin rəhbərlərin aqibəti ucbatından Azərbaycan xalqının maddi-mənəvi sərvətləri talan edildi. Ölkə regionlara parçalandı. Qarşıdurmalar kəskin şəkil aldı və vətəndaş müharibəsi təhlükəsi artdı. Bu bacarıqsız »rəhbərlərin» hakimiyyəti dövründə xalq müsibətli günlərini yaşayırdı. Azərbaycan içəridən dağıdılmışdı. Xalqın taleyi tükdən asılı idi.

Belə ağır, tənnəzüllü günlərdə, çıxılmaz şəraitdə xalq ölüm-dirim mübarizəsinə qalxdı, öz xilaskarını axtardı. Nurlu şəxsiyyət, XX əsrin müdrik siyasi xadimi Heydər Əliyevi Bakıya dəvət etdilər. Çünki xalq onun idarəçilik, dövlətçilik prinsiplərinə, təcrübəsinə, bacarığına çox yaxşı bələd idi.

El gözü tərəzidir, - deyərlər. Kütlə yaxşı bilirdi ki, Vətənini, xalqını canından əziz tutan Heydər Əliyev xalqı yumruq kimi birləşdirər, bizi bu fəlakətdən xilas edə bilər.

Hələ 1970-1980-cı illərdə o, bunu sübut etmişdi, hələ o vaxtlardan o, Azərbaycanda müstəqilliyin əsasını qoymuşdu. Xalq onun idarəçilik məharətini görmüşdü. Çünkü Heydər Əliyev zəngin elmi biliyə malik olan nadir tarixi şəxsiyyətlərdəndir. O, ömür boyu ən məsul vəzifələrdə çalışmaqla, böyük idarəçilik, dövlətçilik məktəbi keçmişdir. Ən nəhayət, Heydər Əliyev müdrik ictimai, siyasi xadim kimi hadisələri qabaqlayır, uzaqgörənliyi ilə cəmiyyətin problemlərini vaxtında və dəqiq tənzimləyə bilir. Dünya siyasət aləmində də Heydər Əliyevin diplomatik gedişləri ilə o dünya siyasətçilərini düşünməyə vadar edir.

Biz, onun kadrları kimi bütün bunları işin gedişində müşahidə eləmişik, görmüşük və görürük.

Heydər Əliyev xalq adamıdır. Daim xalq arasında olmağı sevir. O xalqdan öyrənir. Çünki o, Azərbaycan xalqının adət-ənənəsini, məişətini, həyat tərzini, dünyagörüşünü, psixologiyasını, maddi-mənəvi tələblərini çox yaxşı bilir. Dövlət idarəçiliyinin prinsiplərini, şərtlərini yaxşı bildiyi üçün məhz belə bir qüdrətli dövlət yarada bilmişdir. Bu prinsiplər iqtisadiyyatı və ordunu gücləndirmək, əhalinin məşğulluğunu təmin etmək, elm, təhsil, mədəniyyəti və idmanı inkişaf etdirmək və başqa sahələrin yüksəlişinə nail olmaqdan ibarətdir. İdarəçilikdə cəmiyyətin kompleks inkişafı, tərəqqisi əsas rol oynayır.

H.Əliyev dövlət idarəçiliyinin siyasəti ondadır ki, respublikanın qarşısında duran hər hansı sosial-iqtisadi problemə uzaqgörənliklə yanaşır və onun uğurlu həllinə nail olur.



Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi olanda iqtisadiyyatımızda çox böyük dönüş yaradıldı. Belə ki, 1970-1980-ci illərdə məhsuldar qüvvələrin inkişafı Azərbaycan iqtisadiyyatında dünya təsərrüfat sisteminə xas olan çox böyük üstünlüyə səbəb oldu. Bu da ölkənin müstəqilliyindən sonra respublikanın sosial-iqtisadi həyatında öz müsbət rolunu oynadı.

H.Əliyevin məharətlə dövləti idarə etməsi sayəsində Azərbaycanın milli iqtisadiyyatı onun öz mənafe və məqsədlərinə uyğun yüksək mərhələyə qalxdı.

1970-ci illərin əvvəllərindən Azərbaycanda dövlətçilik, milli mənlik şüuru sürətlə artmağa başladı. H.Əliyevin yüksək təşkilatçılığı və gərgin əməyi sayəsində iqtisadi, ictimai-siyasi, mənəvi həyatın bütün sahələrində böyük yüksəliş əldə edildi. Elə buna görə də o, təkcə SSRİ məkanında deyil, dünyada tanınmağa başlamışdı. Xarici ölkələrin rəhbərlərinin Moskvaya gələrkən, Azərbaycanı görmək təşəbbüsü məhz H.Əliyev şəxsiyyətinə maraqdan irəli gəlirdi. Həmin illər respublikaya gələn xarici qonaqların böyük əksəriyyəti Lənkərana da gəlirdilər. Çünkü möhtərəm H.Əliyevin diqqət və qayğısı sayəsində Lənkəran, N.Tixonovun sözü ilə desək; cənub mirvarisinə dönmüşdü. Gələn qonaqlar H.Əliyevin şəxsiyyəti və dünyagörüşü, siyasi çevikliyi və uzaqgörənliyi haqqında həvəslə danışırdılar və onun idarəetmə bacarığı ilə möcüzələr yaratdığını xüsusi qeyd edərdilər. Heydər Əliyev həmin illərdə xalqımız və respublikamız üçün misilsiz işlər görə bildi. O dövr Azərbaycanda quruculuq illəri idi. Bütün bunlar gələcəkdə əldə edəcəyimiz istiqlal üçün müdrik H.Əliyev tərəfindən sanki əvvəlcədən düşünülüb hə-yata keçirilən siyasət idi. Milli təəssübkeşlik hissi ilə zəngin olan quruculuq dövrümüzün baş memarı H.Əliyev cənablarıydı. Həmin dövrdə Lənkəran rayonu tanınmaz dərəcədə inkişaf etdi. Xanbulan Su dəryaçası, Babək sovxozu ərazisində su anbarı, su bəndi, tərəvəz və çay sahələrinin meliorasiyası, çay fabriklərinin, zavodların, hazırki yeni tipli məktəb və uşaq bağçalarının, yeni tipdə xəstəxana, poliklinikalarının, rayonlararası aptek anbarı, İstisu sanatoriyasının, avtomobil məktəbinin, böyük ticarət obyektləri, ticarət anbarları, bazarlar, tərəvəzçilik bazaları, mehmanxanalar, bütün kəndlərdə və şəhərdə məişət evləri, yeni su xətlərinin, qaz, elektrik xətlərinin çəkilişi, şəhərdə 4 min və 10 min nömrəlik, kəndlərdə avtomat telefon stansiyalarının tikilməsi, rayonun bütün kənd ara yollarının asfaltlaşdırılması, abadlıq və yaşıllıq işləri, yaşayış evlərinin tikilməsi, mikrorayonların salınması və s. həmin illərin yadigarıdır. Bütün bunlar H.Əliyev MK-nın birinci katibi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, rayonumuza göstərdiyi diqqətin nəticəsidir. Hələ 1986-87-ci illərdə iki nəhəng tikintinin Sovet İKP MK siyasi bürosunun və SSRİ Nazirlər Sovetinin qərarı ilə Lənkərana salınması böyük hadisə idi. Hər birinin dəyəri 56 və 60 milyon rubl olan bu zavodların tikilməsi ilə cənub zonasında işsizlik ləğv ediləcəkdi. Möhtərəm H.Əliyev dövlət idarəçiliyində kadrların hazırlanmasına xüsusi diqqət və qayğı göstərirdi. O bilirdi ki, dövlətin idarəçiliyində səriştəli ixtisaslı kadrlar aparıcı rol oynayır. Buna görə də ən istedadlı gəncləri Azərbaycan mühitindən beynəlxalq aləmə çıxarılmasına diqqət yetirirdi. O illərdə Mosk-

vanın və SSRİ-nin digər paytaxt şəhərlərinə 3500 nəfər azərbaycanlı oğlan və qız oxumağa göndərildi. SSRİ-nin ən böyük şəhərlərində təhsil alan gənclərimiz Vətənə dönüb, respublika iqtisadiyyatının inkişafı və əhalinin maddi rifah halının daha da yüksəlişi üçün gərgin əmək sərf edirdilər.

SSRİ adlı superdövlətdə on beş respublikadan biri sayılan Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyev onu ittifaq miqyasında tanıdanlardan, sayılıb seçilənlərdən birinə çevirdi. Xalqın arzu və tələbi ilə ikinci dəfə dövlət rəhbərliyinə qayıtdıqdan sonra isə ölkəni vətəndaş müharibəsi alovundan, parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən qurtardı. Müstəqilliyimizi dönməz, əbədi prosesə çevirdi. Çağdaş Azərbaycan tarixi, Azərbaycan xalqının maddi və mənəvi həyatı onun fəaliyyəti və tərcumeyi-halı ilə bağdılır. Heydər Əliyevsiz Azərbaycan tarixindən, xalqın azadlıq və müstəqillik uğrunda mübarizəsindən bəhs etmək qeyrimümkündür. Heydər Əliyevin fəaliyyəti tariximizin taleyüklü elə məqamı və mərhələləri ilə bağlıdır ki, onlardan bəhs edərkən bu böyük şəxsiyyəti xatırlamamaq, ölkəyə rəhbərlik etdiyi 33 il ərzində gördüyü qlobal işlərdən, yaratdığı, bərpa etdiyi zəngin mənəvi dəyərlərdən həvəslə, fəxrlə söhbət açmaq mənəvi borcumuzdur.

Başa çatmış XX əsrin son otuz ilini Azərbaycan tarixinin Heydər Əliyev dövrü adlandırmaq olar. Bəzən rəqəmsiz ötüşmək olmur. Bu rəqəmlər onun dövləti idarəetmə sahəsində əldə etdiyi müvəffəqiyyətlərin güzgüsüdür. H.Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi illər təkcə sənayedə və kənd təsərrüfatında deyil, xalqın güzəranında və məişətində də əsaslı dəyişikliklər və yüksəlişlər dövrü adlandırıla bilər. 1969-cu ildə H.Əliyev Azərbaycan KPMK-nın birinci katibi seçiləndə respublikada məhsuldar qüvvələrin inkişaf sürətini və miqyasını artırmaq üçün bütün potensial imkanları səfərbər etdi, iqtisadiyyatı dirçəltmək üçün proqram vəzifələr müəyyən etdi. Bunun üçün İttifaq hökumətindən əlavə vəsait almaq tələb olunurdu. Yenicə rəhbərliyə gəlmiş H.Əliyev bu məsələni böyük müdrikliklə əsaslandırırdı. Məhz Heydər Əliyevin uzaqgörən iqtisadi siyasəti nəticəsində 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilib quraşdırılmışdır. Neftayırma sənaye müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma zavodları inşa edilmişdir. Nəticədə göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. On dörd ildə o zamankı qiymətlərlə 101,5 milyard manatlıq (əvvəlki 50 ildə olduğu qədər) məhsul istehsal edilmişdir. Həm də xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox artmış, fond verimi 25 faiz çoxalmışdır.1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir.

1970-ci ildən başlayaraq, Azərbaycanın sənayesi və kənd təsərrüfatı orta ittifaq göstəricilərini qabaqlayıb sürətlə inkişaf etmişdir. Milli gəlir xeyli artmışdır. 1970-1985-ci illərdə əmək məhsuldarlığı 2,6 dəfə çoxalmış, adambaşına milli gəlir 2 dəfə artmışdır.



Həmin dövrdə xalqın milli gəlirinin artması, rifahının yaxşılaşması, yaşayış səviyyəsinin yüksəlməsinə də səbəb olmuşdu. Bakıda çoxmərtəbəli binalardan ibarət neçə-neçə mikrorayonlar və yaşayış massivləri, parklar salınmış, milli memarlıq inciləri sayılan yeni binalar ucaldılmış, yaraşıqlı meydanlar, küçələr, yollar salınmış, körpülər qurulmuşdur. Azərbaycan kəndinin sosial-mədəni siması büsbütün dəyişmişdi. Çiy kərpic və palçıqla tikilən komalar ağ daşdan, qırmızı kərpicdən tikilmiş ikimərtəbəli yaraşıqlı evlərlə əvəz edilmişdir, kəndlərdə və qəsəbələrdə bir çox sosial-mədəni obyektlər tikilmişdir. Kəndlinin məişətində də böyük dəyişikliklər baş vermişdi. Hər bir ev radio, televizor, telefon, qaz, işıq, müasir mebel və digər məişət avadanlıqları ilə təchiz olunmuşdur. On dörd ildə ölkədə 22 milyon kvadrat metrlik, başqa sözlə desək, əvvəlki 50 ildə olduğundan 60 faiz çox mənzil tikilmişdir.

1969-cu ildə H.Əliyev respublikanın birinci şəxsi təyin olunduqdan sonra paytaxt şəhərimiz olan Bakı da tərəqqi etdi, dəyişdi. Bakı şəhərinin "ömrünün" ikinci dövrü başlandı. Gülüstan və Respublika sarayı, Prezident Aparatının, Milli Məclisin inzibati binaları, "Moskva", "Azərbaycan" və "Abşeron" mehmanxanaları, "Olimpiya" idman kompleksi və "Əl oyunları idman sarayı", Yeni Əhmədli və »Günəşli» qəsəbələri həmin dövrün yadigarlarıdır. Bir-birinin ardınca çoxmərtəbəli yaşayış binaları, metro stansiyaları tikilir, N.Nərimanova, M.Əzizbəyova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə, M.Hüseynzadəyə və başqalarına heykəllər qoyulur, Şuşada M.P.Vaqifin məqbərəsi ucaldılırdı. Bakı, habelə respublikanın bütün şəhər və rayonları, o cümlədən Lənkəran tikinti meydanını xatırladırdı. Bütün bunlar rəhbərin düzgün və dəqiq idarəetmə prinsiplərinin təqdirəlayiq bəhrəsidir.

Heydər Əliyevin Azərbaycana birinci gəlişi çox böyük tarixi hadisə idi. O, öz gəlişi ilə Azərbaycanın siyasi həyatına böyük təkan verdi, ölkəmizə yeni canlanma, kommunist ehkamına xas olmayan yeni iş üslubu, təşəbbüskarlıq və milli cəsarət gətirdi. Cəmiyyətdə mövcud nöqsanlara qarşı barışmaz oldu. Sovet ittifaqında H.Əliyev şəxsiyyəti çoxlarını narahat edirdi. Lakin onun müdrikliyi, uzaqgörənliyi üstün gəldi. Hələ 33 il bundan əvvəl beynəlxalq aləmə bacarıqlı, yüksək əqidəyə malik Heydər Əliyev fenomeni çıxdı.

Heydər Əliyev həmin dövrdə Azərbaycanın milli ideologiyası, milli özünüdərketmə məsələsinə diqqət verirdi. Milli-mənəvi dəyərlərimizi, dilimizi və s. inkişaf etdirməyə çalışırdı. Böyük ictimai-siyasi xadim – Möhtərəm Prezidentimiz H.Əliyev istər 1969-1982-ci illərdə, istərsə də 1993-cü illərdə rəhbərliyə gələrkən dövlətin idarə edilməsi üçün əsas şərtlərdən biri olan iqtisadi siyasətə üstünlük verib möhkəmlənməsi ilə xalqın sosial vəziyyətini yaxşılaşdırmaq, əxlaqi əsasların qorunub saxlanması məsələsinə xüsusi fikir vermişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, 1970-1980-ci illərdə gənclərimizin SSRİ-nin tanınmış Universitet mərkəzlərində oxumasının təşkili, ölkəni müdafiə etmək, hərbi sirlərini öyrənmək üçün öz respublikamızda təhsil almasından ötrü hərbi məktəblərin, İnstitut və hazırda Akademiyanın təşkili ölkə rəhbərinin uzaqgörən-

liyindən xəbər verirdi. O, siyasətçilərin illərlə görə bilmədiyi işi bir neçə gündə həyata keçirməyə qadirdir. İşgüzarlığı və fədakarlığı ilə Heydər Əliyev cənabları yorulmaq bilmədən sutkanın 18-20 saatını dövlət işlərinə sərf edir.

Heydər Əliyev Azərbaycan Respublikasının yeni sayca üçüncü prezidenti seçildiyi dövrdən on ilə yaxın vaxt keçir. Prezidentlik İnstitutu milli tariximizdə yeni təsisatdır. Ötən illərin təcrübəsi bu cür idarəetmə hakimiyyətinin düzgünlüyünü və əlverişliyini təsdiq etdi.

Ə.Elçibəyin prezidentliyi dövründə başlayan və Xalq Cəbhəsinin "polkovnikləri" S.Hüseynovun və Ə.Hümbətovun törətdikləri cina-yətlər – vətəndaş müharibələrini dayandırmaq nə qədər təhlükəli olsa da, məhz Heydər Əliyev bu təhlükəni sovuşdurdu. Bu, Heydər Əliyevin prezidentliyi dövründə ən böyük nailiyyətdir. Əgər vətəndaş müharibəsi dayandırılmasaydı, indi Azərbaycanın hansı vəziyyətdə olacağını deyə bilməzdik.

Heydər Əliyevin prezident vəzifəsinə gətirilməsi xalqın taleyini həll etdi. Ə.Hümbətovun "Talış-Muğan Respublikası" kimi oyuncaq törəmələrə, feodal xanlıqlara parçalanmasının qarşısı alındı.

Hörmətli Prezidentin apardığı daxili siyasətlə milli barışığa və sülhə nail olundu. Daxili və xarici "Xeyirxahlar" tərəfindən cəmiyyətdə yaradılan ziddiyyətləri böyük səylər bahasına aradan qaldırmaq mümkün oldu. Heydər Əliyevin prezidentliyi dövründə 10 ilə yaxın müddətdə istehsalın, bütövlükdə iqtisadiyyatın tənəzzülünün qarşısı alındı. İnfilyasiyanın tamamilə dayandırılması daxili siyasətdə qazanılmış böyük uğurdur. Hazırda infilyasiyanın səviyyəsinə və sürətinə görə Azərbaycan keçmiş SSRİ respublikaları içərisində sonuncu yerdədir. ABŞ dollarına nisbətdə milli valyuta-manat mərkəzlərinin Azərbaycana, milli valyutamıza olan inamını möhkəmləndirdi, xarici sərmayələrin ölkəmizə axınına, respublika ərazisində birgə müəssisələrin yaradılmasına kömək etdi.

Bütün bunlar Prezidentimizin dövlət idarəçiliyində tutduğu düzgün və obyektiv mövqeyin nəticəsidir.

Azərbaycan bu müddətdə dünyanın çoxsaylı tikinti işləri aparan ölkələri sırasına daxil olub. Keçid dövrünün tələblərinə, bazar iqtisadiyyatının çətinliklərinə baxmayaraq, şəhərlərin və kəndlərin görkəmi əhəmiyyətli dərəcədə dəyişilib. Biz iqtisadi durğunluqdan tədricən, tərəqqiyə doğru gedirik. Müstəqilliyimizin elan olunmasından sonra ilk dəfə idi ki, Azərbaycanda istehsalın artımı 1997-ci ildən başlayaraq, müşahidə olundu. Bu böyuk yolun başlanğıcıdır. Ölkəmizdə Hörmətli Prezidentimizin yaratdığı sağlam şəraitin nəticəsidir ki, mədəniyyət, elm və təhsil sahələrinin mütəxəssisləri daha vətəni tərk etmirlər. Tərkivətən ziyalılarımız da Vətənə qayıdırlar. Onlarda inam yarandı ki, çətinlikləri aradan qaldırmaq olar, hamımız birlikdə bu vəziyyətdən çıxa bilərik. Bu müddətdə ədəbiyyat, incəsənət, mədəniyyət, elm sahəsində çalışan tanınmış istedadlı şəxslərin qayğısına qalmaq ənənə şəklini alıb. Prezident tərəfindən onlar yüksək qiymətləndirilirlər, onlara əməkdar elm xadimi, xalq artisti, əməkdar artist, əməkdar incəsənət xadimi və s. kimi yüksək adlar verilir. "Şöhrət" və "İstiqlal" ordenləri ilə qiymətləndirilirlər. Prezident təqaüdü verməklə, sosial vəziyyətləri yaxşılaşdırılır.



Heydər Əliyevin prezidentliyinin ən böyük nailiyyətlərindən biri gənc respublikanın dövlətçiliyinin əsaslarının qurulmasıdır.

Cəmiyyətin demokratikləşməsində mühüm məqam ölüm cəzasının ləğv edilməsi idi. Milli tariximizdə və şərq dövlətləri təcrübəsində belə bir qərar ilk dəfə qəbul edilirdi. MDB-də ilk respublikalardan biri kimi, Azərbaycan Respublikasında Konstitusiya məhkəməsi yaradıldı. Buna isə dövlət institutlarının demokratikləşməsi istiqamətində atılan addım kimi baxmaq lazımdır.

H.Əliyevin prezidentliyi dövründə Respublika Konstitusiyasının qəbulundan sonra demokratik dövlətçiliyin əsaslarının yaradılması istiqamətində ikinci mühüm addım atılıb. Bunlar bizim ümumbəşəri prinsiplərə sadiq qaldığımızı göstərir.

1991-ci il oktyabrın 18-də Müstəqillik haqqında Konstitusiya aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni mərhələsi başlandı. Ancaq bu müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətin idi. 1991-1993-cü illərdə onu itirmək təhlükəsi yarandı. Xarici düşmənlərimizin havadarlığı ilə dağıdıcı qüvvələr qarşıdurma yaradıb, dövlət çevrilişinə cəhd edirdilər. Möhtərəm Prezident xalqı bu təhlükələrdən də məharətlə xilas etdi.

Azərbaycanın 8 milyonluq əhalisindən 1 milyondan çoxu qaçqındır və çətin vaxtlarda onlara kömək etmək, yaşayış yeri, geyim və ərzaqla təmin etmək üçün möhkəm iradə, təşəbbüskarlıq tələb olunurdu.

Heydər Əliyev müdrik rəhbərliyi ilə qaçqınlarda və ümumən xalqda sabahkı günə inam yarada bilib. Hazırda qaçqınlar üçün Fizulidə, Ağdamda və başqa rayonlarda yeni qəsəbələr salınır. Onlar çadırlardan evlərə köçürülür. Prezident bütün rəhbər işçiləri bu xeyirxah nəcib işə cəlb edibdir.

Heydər Əliyevin daxili siyasətində əsas prinsipi xalqı, Vətəni tərəqqi yoluna çıxarmaqdır. 1990-1993-cü illərdə respublikaya vurulan ziyan ölkəni ən azı yarım əsr geri saldı. Bu gerilikdən xilas olmaq, iqtisadiyyatı dirçəltmək və həyatı axarına qaytarmaq üçün hər işi sıfırdan başlamağa məcbur idik, üstəlik sabitliyi pozmağa və inkişafa mane olan qüvvələr də təzyiq göstərirdilər. Heydər Əliyevin prezidentliyi dövründə ümumi vəziyyət nəzərə alınmaqla milli dövlətçiliyin tərəqqisi və bərqərar olması istiqamətində çox mühüm addımlar atıldı. Azərbaycan Respublikasının sivil, demokratik dövlətlərin sırasına daxil olması məhz Prezidentin gərgin əməyinin, düzgün siyasətinin nəticəsidir.

Daxili siyasətimiz ölkənin xarici siyasətində də uğurlar qazanmağa şərait yaradıb. Çünki bu iki amil bir-biri ilə bağlıdır və bir-birini tamamlayır.

Heydər Əliyevin xarici siyasətdəki uğurları tariximizin parlaq səhifələridir. Bu uğurlardan ən mühümü 1994-cü ildə atəşkəsə nail olmasıdır. Atəşkəsin dayandırılması barədə aktın imzalanması yüzlərlə, minlərlə gəncin həyatını xilas etdi. Atəşin dayandırılması haqqında Ermənistan Respublikası ilə saziş imzalamasına nail olan Heydər Əliyev bütün dünyaya bir daha sübut etdi ki, sülh tərəfda-

rıdır. Sabiq prezidentlərimizin dövründə Azərbaycanın haqq səsi heç yerdə eşidilmirdi. Beynəlxalq aləmdə ATƏT-in üzvü olan ölkələrin, Budapeşt və Lissabon sammitlərinin qərarları ictimaiyyət üçün daha dəyərlidir. Lissabon sammitində ATƏT-in üzvü olan 53 dövlət ilk dəfə olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıdı. Lissabon sammiti münaqişənin dinc yolla həll olunmasını təsdiq etdi. Bunlar Heydər Əliyevin beynəlxalq aləmdə siyasi lider kimi qazandığı nüfuzun nəticəsidir. Obyektiv və prinsipial mövqedən haqqı sübut etməyin nəticəsidir.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi»nin imzalanması Prezident Heydər Əliyevin xarici siyasətinin ən böyük uğurudur. Bu müqavilələrin həyata keçirilməsində dünyanın ən iri ölkələri – ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Türkiyə və başqa güclü dövlətlərin şirkətləri iştirak edirlər. Bu uğurlu addımlar ölkəmizin iqtisadi siyasətində, eləcə də xarici siyasətdə mühüm rol oynayır. Xarici şirkətlər ölkəmizə milyard dollarla investisiya qoyur və bu iş davam etdirilir.

Gənc Müstəqil Azərbaycan dövlətini qorumaq və inkişaf etdirmək xarici siyasətin düzgün qorunmasından daha çox asılıdır. Prezident Heydər Əliyevin ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin, Yaponiya, AFR, Belçika, Polşa, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə, İtaliya və s. ölkələrə rəsmi səfərləri, apardığı diplomatik danışıqlar çox böyük səmərə vermişdir.

Azərbaycan Asiyadan Avropaya gedən Ümumdünya İpək Yolunu təşəbbüskarlarından biridir. Layihənin təşəbbüsçüsü məhz Heydər Əliyevdir. Hazırda Yaponiyadan Böyük Britaniyaya qədər bu layihəni müdafiə edirlər.

Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan Respublikası Avropa Şurasının tam hüquqlu üzvüdür. Bütün bunlar Prezidentin dövlət idarəçiliyində apardığı daxili və xarici siyasətinin nəticəsidir.

1993-cü ilin iyununda Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan dövlətinin ən mühüm problemlərindən biri gənclərlə iş idi. Çünki gənclər nəzarətsiz qalmışdı. Qayğıları unudulmuşdu. Çoxu yabançı təsirlərə düşmüşdü. Dövlət idarəçiliyində zəngin təcrübəsi olan Prezident ilk günlərdən gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında onların fəallığının və iştirakının təmin olunması, layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şərait yaradılmasına çalışdı.

Hələ 1993-cü ilin sentyabr ayında Azərbaycanın Ali Sovetinin sədri, Prezident səlahiyyətlərini icra edən Heydər Əliyev ölkə gəncliyinin bütün təbəqələrini təmsil edən nümayəndələrlə görüşmüş və gənclərin fikirlərini dinləmişdir. Bu görüşün nəticəsi olaraq, 1994-cü ilin iyul ayında gənclər siyasətini həyata keçirən bir qrumun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzalamışdır. Nazirliyi yaratmaqda ölkə rəhbərinin əsas məqsədi böyüməkdə olan nəslin Vətənə sədaqət, Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə edilməsi olmuşdur.



Möhtərəm Prezidentimiz 1996-cı il fevralın 2-də Müstəqil Azərbaycan gənclərinin ilk forumunda dərin məzmunlu çıxışında bir daha gənclərimizi müstəqil respublikamızı sevməyə, onu qorumağa çağırdı: "Hər bir Azərbaycan gənci öz həyat yolunu Müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında düşünməlidir, ailəsi haqqında düşünməlidir, ancaq hər şeydən çox artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" – deyə gənclərə tövsiyələrini bildirmişdi.

Heydər Əliyev cəmiyyətin saflaşması, xalqın bir məqsəd, bir amal uğrunda birləşməsi, Vətənin işğal edilmiş torpağının azad edilməsi uğrunda mübarizə aparmaq üçün hazırlıqlı, siyasi cəhətdən yetkin gənclərin yetişdirilməsi qayğısına qaldı. Dövrün nəbzini tutub respublikamızın gələcək iqtisadi, siyasi yüksəlişini təmin edə bilən, onu xarici işğalçılardan və təzyiqlərdən qoruya və müdafiə edə biləcək diplomatlar, zabitlər yetişdirilməsinin qayğısına qaldı.

1999-cu ildə gənclərin II Forumunda Möhtərəm Prezidentimizin söylədiyi bu fikirlər gənclərimizin həyat amalına çevrilmişdir: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun".

Heydər Əliyev gəncləri özünün diplomatiya məktəbinə elə cəlb etmişdir ki, bu günlərdə bu sahədə əldə edilən uğurlar bütün Azərbaycan xalqı tərəfindən yüksək sevinclə qarşılandı. Biz möhtərəm Prezidentimiz Heydər Əliyevin diplomatiya məktəbinin layiqli davamçısı, Vətənin layiqli oğlu, Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, ARDNŞ-nin birinci vitse-prezidenti cənab İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və Assambleyanın büro üzvü seçilməsini qürur hissi ilə qarşıladıq.

Bunun əsas səbəbi İ.Əliyevin Azərbaycan və dünya ictimaiyyəti tərəfindən yüksək intellektual səviyyəyə, bilik və mədəniyyətə, idarəetmə səriştəsinə və təcrübəsinə malik olan ciddi və perspektivli siyasətçi diplomat kimi qəbul edilməsidir. Bu möhtərəm Prezidentin Azərbaycan dövlətini gələcəkdə idarə edə biləcək şəxslər yetişdirməsi sahəsində böyük xidmətlərinin nəticəsidir.

Möhtərəm Prezident dövlətin idarə edilməsində, bütün sahələrdə işin canlandırılmasında, istər iqtisadiyyatın yüksəlməsində, islahatların həyata keçirilməsində, sosial-mədəni, ictimai-siyasi həyatda, cəmiyyətin formalaşmasında və saflaşmasında qadınların iştirakını vacib sayır, 1993-cü ildən başlayaraq, bu sahədə bir neçə fərman və sərəncam imzalamışdır. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaratmış, qadınlar rəhbər vəzifədə, idarəetmə və qərarvermə orqanlarında kişilərlə bərabər iştirak edirlər. O, 6 mart 2000-ci il tarixdə »Azərbaycan Respubilkasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalamışdır. Bu fərman Azərbaycan Respublikasının BMT və digər

Beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin verdiyi məlumata görə, 2000-ci il, avqust ayında Cenevrə şəhərində keçirilən İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə BMT-nin Yardımçı Komissiyasının 52-ci sessiyasında bəyənilmiş və Daimi Nümayəndəlik tərəfindən BMT-nin rəsmi sənədi kimi yayılmışdır. Biz fəxr edirik ki, Hörmətli Prezidentimizin qadınlara olan inamı, bacarığına, qabiliyyətinə olan etibarı başqa ölkələrə örnək olaraq yayımlanır. Qadınlarımız onlara göstərilən etimadı doğrultmağa çalışırlar.

Yaxşı deyiblər: zaman və tarix siyasətçilər yetişdirir. Öz növbəsində ayrı-ayrı şəxsiyyətləri tarix yaradır. Zaman H.Əliyevi yetişdirdi və o, tarixin hökmü ilə Azərbaycan xalqı üçün ən ağır dövrlərdə öz tarixi rolunu icra edir.

Gənc müstəqil Azərbaycanın 1970-1985-ci illərdə və ən əsas son on ildə əldə etdiyi uğurları, 1993-2003-cü illərdə Dünya birliyində şərəfli yer tutması H.Əliyevin böyük idarəetmə məktəbinin bəhrəsidir. Bu gün fəxrlə deyə bilirik ki, biz böyük bir ziyalılar ordusu Heydər Əliyevin dövləti idarəetmə məktəbinin yetirmələriyik. Əsrlərlə nəsilbənəsil xalqımız bu məktəbdən bəhrələnəcəkdir. Məhz bu ali keyfiyyətlərə görə Azərbaycan xalqı öz müdrik rəhbərini sevir, dəstəkləyir onun yaratdığı məktəbdən həyata nikbin baxır və işıqlı gələcəyimizə böyük ümidlər bəsləyir.

*Bakı, 2003-cü il*